# Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən icazələrin "ASAN xidmət" mərkəzi vasitəsilə verilməsinin təşkili haqqında

"Azərbaycan Respublikasinin Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasi Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının 5.21-ci bəndində qeyd olunan icazələrin "ASAN Xidmət" mərkəzi vasitəsilə verilməsinin təşkili məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. "Azərbaycan Respublikasinin Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasi Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının 5.21-ci bəndində qeyd olunan icazələrin 2023-cü ilin 4 sentyabr tarixindən 7 saylı Bakı "ASAN Xidmət" mərkəzində verilməsi işinin (sənədlərin qəbulu və hazır icazələrin verilməsi) təşkili İqtisadiyyat şöbəsinin aşağıda adları göstərilən əməkdaşları tərəfindən təmin edilsin:

| | |
|---|---|
| Abasova Aynur Mahir qızı - | İqtisadiyyat şöbəsinin aparıcı məsləhətçisi |
| Hümmətova - İsmayılova - Midvari Ədalət qızı | İqtisadiyyat şöbəsinin böyük mütəxəssis-inspektoru |

2. Bu əmrin 1-ci hissəsinin məqsədləri üçün İqtisadiyyat şöbəsinin böyük məsləhətçisi Əhmədov Eldar Etibar oğlu ehtiyat işçi qismində cəlb edilsin.
3. İqtisadiyyat şöbəsinin aparıcı məsləhətçisi Abasova Aynur Mahir qızı 7 saylı Bakı "ASAN Xidmət" mərkəzində Energetika Nazirliyinin nümayəndələri arasında qrup rəhbəri qismində çıxış etsin.
4. İqtisadiyyat şöbəsinin müdiri Qurbanov Rauf İbad oğlu şöbənin əməkdaşlarının "ASAN Xidmət" mərkəzində növbəlilik prinsipi əsasında xidmət göstərmələrini təşkil etsin.
5. Dövlət qulluğu və kadrlar şöbəsi bu əmrin 1-ci və 2-ci hissələrində adları qeyd olunan əməkdaşların "ASAN Xidmət" Mərkəzlərinin iş rejiminə uyğun olaraq növbəli şəkildə istirahət günü işə çıxmaları ilə əlaqədar əvəzgün verilməsindən irəli gələn məsələlərin həll edilməsini təmin etsin.
6. Ümumi şöbə bu əmrin nazirliyin aparatının aidiyyəti struktur bölmələrinə çatdırılmasını təmin etsin.
7. Azərbaycan Respublikası Energetika Nazirliyinin 23.01.2018-ci il tarixli 08 nömrəli və 01.02.2018-ci il tarixli 42-k nömrəli əmrləri ləğv edilsin.
8. Əmrin icrasına nəzarət nazir müavini Kamal Abbasova həvalə edilsin.

**Nazir** **Pərviz Şahbazov**